“**Respublika**”.-2015.-24 fevral.-N 43.-S.10.

## XX əsrin əvvəllərində erməni millətçilərinin Azərbaycana xəyanəti (1905-1906-cı illər)

1905-1907-ci illərdə Rusiya imperiyasını bürüyən inqilabi mübarizə dalğaları millətpərəst qüvvələrin fəallaşmasını və milli azadlıq hərəkatının genişlənməsini şərtləndirirdi. Rusiya imperiyasının milli ucqarlarında çarizmi devirmək şüarı altında inqilabi qüvvələr ayağa qalxırdı. Rus-yapon müharibəsində imperiyanın rüsvayçı şəkildə məğlub olması ölkədə milli azadlıq hərəkatının geniş vüsət alması üçün zəmin hazırladı. Zaqafqaziya regionu xüsusilə mürəkkəb bir ərazi idi. Çünki burada sosial-siyasi ziddiyyətlərlə yanaşı, milli ədavət ocaqları da mövcud idi. Çar hökumətinin birinci rus inqilabı dövründə Zaqafqaziyada yeritdiyi siyasəti “şəraitə görə hərəkət” prinsipi kimi dəyərləndirmək daha düzgün olardı. İnqilabi yüksəliş dövründə güzəştə gedən, gözləmə mövqeyindən çıxış edən hökumət inqilab tənəzzülə doğru getdikcə fəallaşır, daha sərt mövqedən çıxış edirdi. İmperiyanın digər milli ucqarlarında olduğu kimi, Zaqafqaziyada da çarizmin azadlıq hərəkatını yaratmaq vasitələrindən biri milli ədavətin qızışdırılması, xalqların bir-birinin üzərinə qaldırılması, dini ayrı-seçkilik yaradılması idi.

Çarizmin Zaqafqaziyada yeritdiyi milli-dini ayrı-seçkilik siyasətini qətiyyən inkar etmək olmaz: hökumət ardıcıl, sistemli şəkildə ermənilərlə azərbaycanlılar arasında düşmənçilik siyasəti yeridir və bu çirkin siyasəti ilə imperiya məqsədlərini həyata keçirirdi. Bu siyasət xüsusilə inqilabın yüksəlişi dövründə daha məqsədyönlü xarakter daşıyırdı. Həmin dövrdə çar hökuməti əsasları laxlamaqda olan imperiyanı saxlamaq üçün hər cür eybəcər üsul və vasitələrə əl atmağa hazır idi. Lakin tarixi proseslərin sərf-nəzər edilməsi belə bir qənaətə gəlməyə əsas verir ki, həmin dövrdə Zaqafqaziyada başlayan qanlı hadisələrin bütün səbəblərini yalnız çap hökumətinin mürtəce siyasətində axtarmaq düzgün deyildir. Çünki bu münaqişədə “Daşnaksütyun” partiyasının başçılığı altında erməni millətçilərinin yeritdiyi siyasət xüsusi rol oynamışdır və problemin bu ciddi amilin üzərindən keçərək araşdırılması mümkün deyildir. Erməni tarixçisi R.İ.İşxanyanın qeyd etdiyi kimi, əsrin əvvəllərində “müxtəlif siyasi qüvvələrin əlində oyuncağa çevrilən “Daşnaksütyun” partiyasının siyasi manevrləri gah müsəlman burjuaziyasını, gah Bakı proletariatını, gah da erməni millətini pis vəziyyətdə qoymuşdur”.

Zaqafqaziyada erməni və azərbaycanlılar arasında kütləvi toqquşmalar “Daşnaksütyun” partiyasının həyata keçirdiyi planın ayrılmaz tərkib hissəsi idi ki, burada da əsas məqsəd Azərbaycan türklərini bütün vasitələrlə ata-baba torpaqlarından sıxışdırıb çıxararaq, həmin ərazilərdə Türkiyədən köçürülmüş erməniləri məskunlaşdırmaq idi. Məharətlə düşünülmüş bu planı inqilabın doğurduğu hərc-mərcliklər dövründə reallaşdırmaq daha asan idi. Ona görə ki, siyasi çaxnaşmalar ucbatından zəifləmiş mərkəzi hakimiyyət strukturları ümumdövlət problemləri ilə məşğul olduğundan imperiya üçün “məhəlli” səciyyə daşıyan bu tipli məsələlərə ciddi şəkildə müdaxilə etməyə imkan tapmazdı.

1885-ci ildə şovinist ruhlu ilk erməni siyasi firqəsinin əsası qoyuldu. Marseldə təsis olunan bu firqə “Armenakan” adlanırdı.

1887-ci ildə Cenevrədə daha bir erməni siyasi partiyası “Qnçaq” (“Zəng”) yaradıldı ki, bu partiyanın lideri A.Nazarbekyan Plexanovun təsiri altında olmuşdur. “Qnçaq” partiyasının əsas etibarı ilə sosial-demokratizm prinsiplərinə söykənən proqramında İran, Türkiyə və Rusiyada yaşayan ermənilərin milli müstəqilliyi təbliğ olunurdu. Bu halda ermənilər arasında ideya birliyinin, onların yaşadığı ərazilərdə gizli inqilabi dərnəklərin yaradılması ilə yanaşı, əsas mübarizə vasitəsi kimi terrorçuluq, üsyan, silahlı dəstələrin təşkili və s. irəli sürülürdü.

1893-cü ildə “Qnçaq” öz fəaliyyətini Londonda davam etdirməyə başlayır. 1895-ci ildə isə onun şöbələri artıq Aleksandropol, Yelizavetpol, Şuşa, Qars, Batumi, Axalsık, Bakı şəhərlərində fəaliyyət göstərirdi. Onlar 1896-cı ildə Vanda dəhşətli qırğın törətmişdilər.

1890-cı ildə isə Tiflis şəhərində üçüncü bir erməni partiyası yaradıldı. “Daşnaksütyun” adlanan bir partiya ilk dövrlərdə X.Mikaelyan, S.Zavaryan və başqalarının liderliyi ilə fəaliyyət göstərirdi. Yarandığı ilk gündən Osmanlı dövləti ərazisində Ermənistan dövləti yaratmaq proqramını hazırlayan “Daşnaksütyun” partiyası 1904-cü ildə Qafqazı Ermənistanın planlarına daxil etdi. Əslində isə Qafqazda məskunlaşmış ermənilərin vəziyyəti müstəqil bir dövlət yaratmaq üçün əlverişli deyildi. Bütövlükdə 54 qəzadan ibarət Zaqafqaziyanın yalnız 5 qəzasında ermənilər əksəriyyət təşkil edirdilər. Lakin “Daşnaksütyun” partiyası liderləri terror və qırğın taktikası ilə Qafqazın müsəlman yaşayan ərazilərini boşaltmaq və gələcək Ermənistan üçün ermənilərin əksəriyyəti təşkil edəcəyi bir bölgə hazırlamaq fikrinə düşdülər. Birinci rus inqilabı dövründə Bakıda “Qnçaq”ın üç şöbəsi (“İnker”, “Banvor” vıə “Murad”) fəaliyyət göstərirdi.

İyirminci yüzilliyin əvvəllərində erməni daşnaklarının və erməni millətçilərinin törətdikləri qırğınlar, demək olar ki, bütün Zaqafqaziyanı əhatə edirdi. Bakıda, Şuşada, Tərtərdə, Qarabağda, Naxçıvanda, İrəvanda, Zəngəzurda, Göyçə mahalında, Borçalıda, Qazaxda, Lənkəranda, Salyanda və bir çox yerlərdə, yəni müsəlmanlar yaşayan ərazilərdə ağılasığmaz qətliamlar törətmişdilər. Erməni vəhşiliklərini öz gözləri ilə görən Mir Möhsün Nəvvab "Qafqaz erməni tayfası ilə müsəlmanların vuruş və ictimai tarixləri" əsərində mühüm faktlar və məlumatlar vermişdir. Əsərdə tariximizin qanlı və faciəli səhifəsi olan 1905-1906-cı illərdə rus çinovniklərinin fitvası ilə ermənilərin azəri türklərinə qarşı düşmənçilik və qəsbkarlıq siyasəti, xalqımıza qarşı törətdikləri soyqırımı, soydaşlarımızın zor gücünə öz torpaqlarından qovulması konkret əksini tapmışdır.

1905-1906-cı illərin qırğınları haqqında daha geniş məlumat M.S.Ordubadinin tarixi sənədlər əsasında yazdığı "Qanlı illər" əsəridir. Erməni vəhşiləri tərəfindən törədilən müsəlman qırğınlarının şahidi olan M.S.Ordubadi obyektiv olaraq hadisələri araşdırır və qeyd edir ki, bu qətlimanların törədilməsinin dörd səbəbi vardır. Birinci səbəb kimi erməni daşnaksütyun komitəsinin müstəbid bir idarə üsulunu təşkil etməsidir ki, Qafqazda bir sıra qanlı olaylar yaratdı. "Daşnaksütyun" partiyasının millətçiləri və silahlı dəstələri müsəlmanlar yaşayan yerlərdə qanlı qırğınlar törətdilər. Bu yerdə M. S. Ordubadi maraqlı bir fakt gətirir ki, ermənilər özləri təsdiq edirlər ki, hadisələri törədən də ermənilərdir, sülh danışıqlarını pozanlar da ermənilərdir, cinayətləri törədənlər də ermənilərdir. Zənnimcə, bu sənəd o zaman üçün də, müasir dövrümüz üçün də qiymətli sənəd ola bilər. Çünki ermənilər özləri təsdiq edirlər ki, erməni daşnakları qırğınların törədici viruslarıdır.

İkinci səbəb kimi məhəlli hökumət məmurlarının müharibə zamanlarında etinasızlığıdır. Bu yerdə ermənilərin terrorları qorxusundan bir tərəfi əldə saxladı, digər tərəfə növbənöv vicdansızlıqlar edilməsidir. Deməli, hökumət məmurları bir tərəfi, yəni erməniləri silahlandırıb müsəlman əhalisinin üzərinə qızışdırır. Nəticədə dinc müsəlmanlar silahlı bandalar qarşısında heç nə edə bilmir, müqavimət göstərə bilmirdilər.

Üçüncü səbəb kimi müsəlmanların elmsizliyi və müasir işlərdən bixəbər olmalarıdır. Eyni zamanda müsəlmanların silahsız və müasir işlərdən xəbərsizliyidir.

Dördüncü səbəb kimi ermənilərin avtonomiya - idarə muxtariyyəti həvəsində olmalarıdır. Bu səbəbdən ermənilər hər aybaşı Londona, Parisə, Amerikaya qaçıb ərzi-hal edirlər. Türkiyəyə qarşı ərazi iddia edirlər. Türkiyədə ermənilər üçün muxtariyyət tələb edirdilər. Bir sözlə, erməni daşnakları "böyük Ermənistan" xəyalı ilə yenidən Qafqazı və əslində dünyanı qızışdırırdılar ki, özlərinə arzuladıqları "dənizdən-dənizə" adlı bir imperiya dövləti yaratsınlar. Bax bu yerdə erməni millətçilərinin maskası yırtılır və onların hiyləgər sifətləri görünür. Beləliklə, kəmağıl, nadan və vəhşi adamlar olan (Movses Xoranetsi) ermənilər guya təqribən 2 min il bundan əvvəl mövcud olmuş "böyük Ermənistan" dövlətini yaratmaq xülyasına düşürlər. Beləliklə, dövlət yaratmaq qabiliyyətinə malik olmayan araqızışdıran, bic və fitnəkar "ermənilər ilk dəfə buraxıldıqları torpaqlara həmişə sahib çıxırlar". (A.S.Qriboyedov). Məhz bu yerdə tanınmış tədqiqatçı-alim akademik V.L.Veliçkonun sözlərini təkrar etmək yerinə düşər: "erməni xəritələrində "böyük Ermənistan" sərhədləri paytaxtı Tiflis olmaqla az qala Voronejə qədər uzadılır. Ermənilər gürcüləri vicdansızcasına qarət edir, abidələrin gürcü yazılarını pozur, tarixi yalanlar uydurur və gürcü çarlığının ərazisində olan, gürcü xalqının tarixi keçmişindən xəbər verən abidələrin ermənilərə məxsus olduğunu iddia edirlər".

Deyilənlərdən belə nəticəyə gəlirik ki, heç bir coğrafi koordinatlara və coğrafi ərazilərə malik olmayan və cürbəcür tayfaların tör-töküntüləri olan bu "başkəsən ermənilər" (Strabon) öz istəklərinə uyğun gəlməyənləri iyrənc bir üsulla və ustalıqla onu əksinə göstərməkdə mahirdirlər, dinləyicilərini və oxucularını "palıd ağacında alma yetişir" fikrinə inandıra bilirlər (İqrar Əliyev).

Erməni quldur dəstələri Türkiyənin ayrı-ayrı şəhərlərində və vilayətlərində qanlı qırğınlar törətdilər. Təkcə Van şəhərində 500 min türkü öldürdülər. Onlar körpə uşaqların başını kəsir, hamilə qadınların qarnını yarıb körpəni nizəyə keçirir, kişilərin lüt kürəyinə qaynar samovar bağlayıb gəzdirirdilər. İnsan əqlinə sığmayan vəhşilikləri törədən ermənilər Türkiyə ərazisində öz dövlətlərini yaratmaq istəyirdilər. Buna görə də 1896-cı ildə Sultan Əbdülhəmid ermənilərin Türkiyə torpaqlarında törətdikləri vəhşiliklərin qarşısını almaq üçün əks hücuma keçdi və erməniləri geri oturtdu. Bütün bu tədbirlər nəticəsində bir çox ermənilər qaçaraq Qafqaza, o cümlədən Azərbaycan ərazisinə sığındılar. Erməni millətçiləri artıq Türkiyə torpaqlarında "Ermənistan dövləti" yaratmaq xülyasından əl çəkərək, Cənubi Qafqazda, o cümlədən Azərbaycan ərazisində öz istəklərini həyata keçirmək üçün fürsət axtarırdılar.

Erməni daşnaklarının Azərbaycanda törətdikləri vəhşiliklər, qırğınlar öz başlanğıcını 1905-ci ilin fevral ayında baş vermiş toqquşma ilə götürdü. Belə ki, ermənilər Qafqazdakı yüksək vəzifəli rus məmurlarından gizli tapşırıq alaraq silahlandılar. Bütün bu hadisələrin səbəbini yalnız çar hökumətinin mürtəce hakim siyasətində axtarmaq düzgün olmazdı. Çünki bu münaqişədə "Daşnaksütyun" partiyasının

başçılığı altında erməni millətçilərinin yeritdiyi siyasət xüsusi rol oynamışdır. Zaqafqaziyada erməni və müsəlmanlar (azərbaycanlılar) arasında kütləvi toqquşmalar "Daşnaksütyun" partiyasının həyata keçirdiyi planın ayrılmaz hissəsi idi ki, burada əsas məqsəd azəri türklərini bütün vasitələrlə ata-baba torpaqlarından sıxışdırıb çıxararaq, həmin ərazidə Türkiyədən köçürülmüş erməniləri məskunlaşdırmaq idi. "Daşnaksütyun" partiyasının bu planını inqilabın doğurduğu hərc-mərcliklər dövründə reallaşdırmaq daha asan idi.

Erməni-azərbaycanlı münaqişəsinin ilk təbili Bakı şəhərində vuruldu. Bunun ardınca qanlı toqquşmalar Şuşaya, Zəngəzura, İrəvana, Naxçıvana, Ordubada, Eçmiədzinə, Yelizavetpola, Cavanşir və Qazax qəzalarına yayılmağa başladı. Erməni-azərbaycanlı münaqişəsi zəminində faciənin başlanmasına 1905-ci ilin fevralında Bakıda baş verən hadisələr səbəb oldu. Fevral ayının 2-də şəhərin Quba meydanında Ağarza adlı bir azərbaycanlı erməni daşnakları tərəfindən vəhşicəsinə öldürüldü. Bundan dörd gün sonra fevral ayının 6-da isə müttəhim Babayev erməni əsgərlərinin əli ilə qətlə yetirildi.

Bu iki hadisə ilə bağlı xəbər yayılaraq, bütün Bakı şəhərini atışmalara qərq etdi. Fevral ayının 7-də silahlanmış və hazırlıq görmüş erməni daşnakları əsl hərbi qiyam qaldırır və şəhərin azərbaycanlı əhalisini cavab tədbirləri görməyə məcbur edirlər. Azərbaycanlıların güclü təzyiqinə duruş gətirməyən ermənilər öz mənzillərinə çəkilməyə məcbur olurlar. Şəhərə nəzarət edən rus hərbçiləri münaqişəyə ciddi münasibət bəsləmir, onun qarşısını almaq üçün təbirlər görmürdülər. Çünki münaqişənin ən gərgin vaxtında şəhərə cəmi 20 kazak nəzarət edirdi, bir qədər sonra isə Salyan polkundan münaqişənin qarşısını almaq üçün 12 əsgər də cəlb olundu. Lakin əsgərlərə atəş açmağa icazə verilməməsi bütün bunların gözdən pərdə asmaq üçün edildiyini göstərirdi. Bakıda baş verən ilk münaqişənin günahkarı ermənilər olduğu halda, "Daşnaksütyun" partiyasının 1905-ci il fevral ayının 12-də gürcü və rus bolşevikləri ilə birgə imzaladığı "Bütün Qafqaz xalqlarına" adlı müraciətdə bu hadisələrin səbəbkarı kimi müsəlman əhalisi ittiham edilir, hökumətin onları silahlandırıb, guya əliyalın ermənilərin üstünə göndərdikləri iddia olunurdu.

Münaqişənin qanlı və barışmaz xarakter daşımasına baxmayaraq, azərbaycanlılar çoxlu sayda erməni ailəsini ölümdən qurtararaq mənzillərində gizlətmişdilər. Lakin ermənilər bu istiqamətdə heç bir addım atmadılar. Fevral ayının 10-na qədər davam edən qanlı hadisələrdə hər iki tərəfdən yüzlərlə sakin öldürülmüş, şəhərə külli miqdarda ziyan dəymişdi. Bakı polismeysterinin Bakı qradonaçalnikinə yazdığı 11 may 1907-ci il tarixli 1040 nömrəli raportunda deyilirdi ki, "bu qırğında ermənilər, sözsüz ki, tatarlardan daha yaxşı təşkil olunmuş və silahlanmışdılar". Üstünlüyün səbəbləri isə ziyalılar başda olmaqla Bakı şəhərinin erməni əhalisinin rəğbət bəslədiyi və müdafiə etdiyi "Daşnaksütyun" partiyasının xidmətləri ilə əlaqələndirilirdi.

Bakıdakı fevral hadisələrindən sonra münaqişənin hüdudları sürətlə genişləndi. Fevralın 20-21-də İrəvanda, may ayında Naxçıvanda, iyunda Şuşada qanlı hadisələr törədildi. Sentyabr ayında Qazaxda törədilən münaqişə nəticəsində şəhər büsbütün yandırıldı. Noyabrda isə Yelizavetpol şəhərində toqquşma baş verdi.

Bu münaqişələrdə ermənilərin vəhşiliklərinin həddi-hüdudu olmamışdır. Onlar Avropa mədəniyyətindən və sivilizasiyasından dəm vurduqları halda, köməksiz dinc əhaliyə qarşı vəhşiliklərin bütün növlərindən istifadə etmişlər. 1905-1906-cı illər Bakıda və Azərbaycanın digər qəzalarında terror, dağıntı və qırğınla müşayiət olunmuşdur. Verilən məlumata görə, 128 erməni və 158 müsəlman kəndi talan edilmiş və ya dağıdılmışdır. Ölənlərin sayı isə bəzi hesablamalara görə, 3100-dən 10 min nəfərə qədər olmuşdur.

Mayın 23-də ermənilərin Qarsaçay bağçasında müsəlman gənclərinə hücumu ilə İrəvanda qırğınlar başlanır. Mayın 31-də İrəvanda qırğınları dayandırsalar da, ermənilər ətraf müsəlman kəndlərinə hücum etməyi qərara alırlar. Elə həmin axşam ermənilər Qırxbulaq mahalının Gözəcik kəndinə hücum edirlər. İyunun 2-də 10 min nəfərlik erməni alayı Məngüs kəndinə hücum edir. Dağılmış 12 müsəlman kəndinin əhalisi Təzəkəndə qaçır. Ermənilər iyunun 3-də Güllücə kəndinə hücum edirlər. Silahsız əhali Tutiyə, Damagirməz, Kamal kəndlərinə qaçır. Qırğınlar 18 gün davam edir. İyunun 3-də Abaran, Şörəyel, Pəmbək və Aleksandropol erməniləri Eçmiədzin (Üçkilsə) qəzasının Üşü kəndinə hücum edir, iyunun 8-də müsəlmanlar kəndi tərk edirlər. İyunun 9-da ermənilər, Pərsi, Nəzrəvan, Kiçikkənd, Kötüklü, Qoşabulaq, İrku, Əngirsək, Təkiyə kəndlərini dağıdırlar. M.S.Ordubadi 1905-ci ildə indiki ermənistan ərazisində ermənilərin törətdikləri soyqırımı belə səciyyələndirmişdir: "İrəvan mahalı bir yanar dağa, vulkana dönüb nəcib islam millətini yandırmaqda, boğmaqda idi".

1897-ci ildə İrəvan quberniyasında azərbaycanlı əhalisi 313176 nəfər olduğu halda, 10 ildən sonra - yəni 1907-ci ildə 302965 nəfər qalmışdır. Deməli, 1905-ci və 1906-cı illərdə İrəvan quberniyasında əhalinin 10 illik təbii artımından 10 min nəfərdən artıq azərbaycanlı qətlə yetirilmişdir.

Beləliklə, 1905-1907-ci illərdə erməni millətçiləri öz tarixi torpaqlarında yaşayan azərbaycanlıları planlı surətdə doğma yurdlarından çıxarmağa, qırmağa və bununla da milli soyqırıma başladılar. Gəncə qubernatoru 1907-ci il avqustun 9-da Peterburqa məlumat vermişdir ki, zavallı azərbaycanlı kəndlilərinin üzərinə təqribən yüz minlik zinvorlar (əsgərlər) ordusu göndərilmişdir. Türkiyədən qaçan ermənilərin və ancaq insan öldürməyə adət etmiş yerli başkəsənlərin, demək olar, hamısı bu orduya qoşulmuşdur. 1905-1907-ci illərdə baş verən İrəvan hadisələri, Eçmiədzin (Üçkilsə) hadisələri, Qafan hadisələri, Təkyə və Qatar hadisələri (Eçmiədzin qəzası), Oxçu-Şabadin hadisələri (Zəngəzur qəzası) və digər hadisələr zamanı vəhşiləşmiş ermənilər on minlərlə soydaşımızı öldürmüş, yüzlərlə azərbaycanlı kəndlərini yerlə-yeksan etmişlər.

1905-ci ilin noyabrında Gəncə şəhərində, Cavanşir və Qazax qəzalarında, Tiflis şəhərində ermənilər iğtişaşlar törədərək minlərlə günahsız azərbaycanlı qətlə yetirdilər.

Erməni müəlifi S.Zavaryanın verdiyi məlumata görə, həmin dövrdə Şuşa qəzasında 12, Cavanşir qəzasında 15, Cəbrayıl qəzasında 5, Zəngəzar qəzasında 43 (cəmi 75 kənd) müsəlman kəndi dağıdılmışdı.

1906-cı ildə Tiflisdə Qafqaz canişini Vorontsov-Daşkovun təşəbbüsü ilə erməni-müsəlman qırğınına son qoymaq məqsədilə sülh konfransı (məclisi) keçirildi. Həmin konfransda müsəlman nümayəndələri Əhməd bəy Ağa oğlu, Əlimərdan bəy Topçubaşov, Ədil xan Ziyadxanov və başqaları "Daşnaksütyun" partiyasının niyyətlərini ifşa edir, onun Qafqazda törədilən qırğınların, terrorçuluğun təşkilatçısı və icraçısı olduğunu göstərir, rəsmi hökumət dairələrinin bu təşkilatın əməllərinə göz yumduğunu sübut edirdilər.

Lakin bu konfransın keçirilməsindən bir qədər sonra erməni silahlı dəstələri yenidən qırğınlara başlamışdı. Bakıda və Şuşadakı ikinci məğlubiyyətlərindən sonra "Böyük Rusiya inqilabı söndü, biz işləri sona çatdıra bilmədik" deyə 1906-cı ilin yayında Qarabağ və Zəngəzura yol açmaqdan ötrü İrəvan, Abaran, Aleksandropol, Şörəyel ermənilərinə teleqramlar göndərilərək əsgər toplamışlar. İrəvandan Zəngəzura, Zəngəzurdan Qarabağa qədər yol boyunca erməni əhalisinin sayı az idi. Ona görə vəhşiləşmiş erməni cəlladları Zaqafqaziyanın bütün bölgələrində dinc azərbaycanlıları amansızcasına məhv edir, heç kəsə rəhm etmirdi. Ermənilərin qanlı cinayətlərini göz yaşları içərisində qələmə alan M.S.Ordubadi öz əsərində yüzlərlə və minlərlə fakt gətirir. Həmin tarixi faktlardan biri: Zəngəzurun Qafan dairəsində ermənilər azərbaycanlılar yaşayan kəndi talan edir, kəndi yandırır, 62 nəfər qadın, uşaq və ahılı doğrayaraq daşların arasına doldururlar. Daşların arasından damcı-damcı axan qan gölməçə əmələ gətirmişdir. Bir qədər aralıda isə 15 nəfər körpə cocuq, başları kəsilmiş, cəsədləri doğranmış, üst-üstə yığılmışdı. Ermənilər həmin ərazidə yaşayan bütün müsəlmanları qılıncdan keçirmişdilər.

Ümummilli lider Heydər Əliyevin imzaladığı Prezident fərmanında deyilir: "Böyük Ermənistan"yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki azərbaycanlı kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə-yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi".

Faktlar və qaynaqlar bir daha təsdiq edir ki, 1905-1907-ci illərdə ermənilər kütləvi şəkildə azərbaycanlılara divan tutmuş, şəhər və kəndlərimizi yandırmış, uşaqları, qadınları, qocaları amansızcasına və vəhşiliklə öldürmüşlər. Həmin dövrdə Gəncə və Qazax quberniyasında 200, Cavanşir-Cəbrayıl və Zəngəzur qəzalarında 75 Azərbaycan kəndi erməni vəhşiləri tərəfindən yerlə-yeksan edilmiş, İrəvan və Yelizavetpol quberniyalarında isə 200-dən artıq yaşayış məntəqəsi viran edilmişdir. Erməni vəhşilərindən qaçıb canını qurtaran on minlərlə azərbaycanlı öz doğma yurd-yuvasını və isti ocağını tərk etmək məcburiyyəti qarşısında qalmış, bununla da Azərbaycanda qaçqınlıq və məcburi köçkünlər dəstəsinin əsası qoyulmuşdur.

Beləliklə, zaman-zaman gerçəkləşdirilən və planlı şəkildə həyata keçirilən erməni niyyətlləri, əslində dənizdən-dənizə, sonra isə dünya okeanlarına çıxmaq üçün "xəyali böyük Ermənistan" dövləti yaratmaq siyasətinin bir hissəsidir. Həm də bu yolda erməni millətçiləri ən iyrənc metodlardan istifadə etməkdən belə çəkinməmişlər.

**Xaqani MƏMMƏDOV,**
**professor.**

**Nuru MƏMMƏDOV,**
**professor.**